# Dövlət Bayrağı günü qeyd olundu

**Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin akt zalında universitetin professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə keçirilən tədbir dövlət himninin səslənməsi ilə başladı.**

Tədbirdə çıxış edən Universitetin rektoru professor Rahim Hüseynov Azərbaycan Respublikasının dövlətçilik rəmzlərindən biri olan Milli Bayrağımızın yaranması tarixindən danışdı. Rektor dedi ki, Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilmiş və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olmuşdur. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilmişdir. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" Qanun qəbul edərək 1918-ci ildə qəbul olunmuş bayrağı Dövlət bayrağı elan etmişdir.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il noyabrın 17-də Dövlət Bayrağı gününün təsis edilməsi haqqında sərəncam imzalamışdır. Məhz bu sərəncama uyğun olaraq hər il noyabrın 9-u ölkəmizdə Dövlət Bayrağı günü kimi qeyd olunur.

Bu gün Azərbaycan üç rəngli bayrağının dünyanın hər tərəfində dalğalandığını deyən Rahim Hüseynov Möhtərəm Prezidentimiz İlham Əliyev Cənablarının apardığı ardıcıl siyasət sayəsində Bayrağımızın tezliklə Şuşada, Xankəndində, Laçında, Kəlbəcərdə, Zəngilanda, Qubadlıda, Ağdamda, Cəbrayılda, Füzulidə dalğalanacağını dedi.

Azərbaycanın Dövlət bayrağındakı üç rənginin mənasını açan professor Rahim Hüseynov dedi ki, bu rənglər "Türkçülük, islamçılıq, müasirlik" mənasını daşıyır və bu ideyanın müəllifi Azərbaycanın görkəmli mütəfəkkiri Əli bəy Hüseynzadədir, fəxr edirəm ki, mən bu nəslin davamçısıyam.

Rektor çıxışının sonunda Noyabrın bayramlar ayı olduğunu dedi və qarşıdan gələn Konstitusiya günü, Milli Dirçəliş günü münasibəti ilə tədbir iştirakçılarını bir daha təbrik etdi.

**08.11.2018**